İstedadlar

# "Teatr gözlə görünən yuxudur"

"Mənim uşaqlığım fərqli keçib. Lap kiçik yaşlarımdan evin bir tərəfində səhnə düzəldib artistlik edərdim. Özümdən asılı olmayaraq, müxtəlif obrazlar yaradardım. Valideynlərim də hərəkətlərimi alqışlayardılar. Atam, anam mənə əl çalanda gözümün önündə böyük salonlar, geniş tamaşaçı kütləsi canlanırdı. Bircə istəyim vardı: tez böyüyüb aktrisa olum... Böyüdükcə musiqiyə, şeirə olan həvəsim daha da artırdı. Məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edirdim. Gözləmirdim ki, müəllimlərim hansısa obrazı canlandırmağı mənə tapşırsınlar. Beləliklə, həm uşaq bağçasında, həm də orta məktəbdə oxuyanda hamı məni aktrisa kimi tanıyırdı. Mingəçevir şəhərində keçirilən şeir müsabiqəsində şəhər birincisi olaraq qızıl medal qazanmışam. Ulu Öndər Heydər Əliyevin irsi ilə bağlı keçirilən ən yaxşı təqdimat yarışında isə respublika birincisi olmuşam.



Beşinci sinifdə oxuyarkən Uşaq və Gənclər İnkişaf Mərkəzinin dram dərnəyinə üzv oldum. Aktrisa olmağımda müəllimim Ülviyyə Kərimovanın müstəsna rolu var. Mənə həmişə ürək-dirək verərdi, tanınmış aktyorların həyatından, keçdiyi yolun çətinliyindən bəhs edərdi. Məni bu sənətlə ayrılmaz dost edən də Ülviyyə xanım oldu. Anam da həmişə hər uğurumda yanımda oldu, sevincimi birlikdə bölüşdük. Təbii ki ailəmdə narazılıqlar da baş qaldırırdı. Hətta hələ də "başqa sənətə yönəlsəydin" deyənlər var. Amma mən çox xoşbəxtəm ki, bu yolu seçmişəm. Təkrar bu dünyaya gəlsəm, yenə də bu sənətin ardınca gedərdim. Teatrsız özümü təsəvvür edə bilmirəm. Basqa sahədə bu cür həvəslə, inamla çalışa bilmərəm. İnsan dəbdəbəli, zəngin həyat sürməsə də xoşbəxt ola bilir. Mən öz xoşbəxtliyimi insanların gülüşündə, sevincində görürəm. Hiss edirəm ki, teatra gələn insanlar tamaşaya baxdıqdan sonra fərqli, şən, qayğısız olurlar. İnsanları qısa müddət də olsa dərdindən,



qayğısından azad edə biliriksə nə xoş bizə. Bu da bizim xoşbəxtliyimiz olur".

Həmsöhbətimiz Mingəçevir Dövlət Dram Teatrının gənc aktrisası Lalə Abuşovadır. Lalə Valid qızı Abuşova 2002-ci ildə Mingəçevir şəhərində anadan olub. 2019-cu ildə Səməd Vurğun adına Mingəçevir şəhər 16 nömrəli orta məktəbi əla qiymətlərlə başa vurub. Elə həmin il də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatr, dram, kino aktyoru fakültəsinə daxil olub .

Lalə xanım qürurla vurğulayır ki, qabiliyyət imtahanında respublikanın Xalq artisti Şəfiqə Məmmədova hər iki kateqoriya - aktyorluq və musiqi qabiliyyəti üzrə onu 10 balla dəyərləndirib. "Bu qiymət mənim sənət yolumun uğurlu başlanğıcı üçün bir stimul idi. Birinci kursu Xalq artisti Vidadi Həsənovun sinfində bitirmişəm. Sonralar isə Əməkdar artist Gülşad Baxşıyevadan dərs almışam. Çox şanslıyam ki, bu cür müəllimlərim olub. Bu gün bütün sənət uguruma görə onlara borcluyam. Xüsusilə Gülşad xanımın haqqı, zəhməti üstümdə daha çoxdur. Bu sehrli dünyanın sirlərini mənə o öyrədib. O, mənim ustadımdır".

Lalə Abuşova bir ildir ki, Mingəçevir Dövlət Dram Teatrında çalışır. 2024-cü il onun üçün uğurlu il olub. Teatrda monotamaşası baş tutub. Lalə xanım deyir ki, 10 günün icində həm tamaşa yazıldı, həm də hazırlandı. Gənc aktyora bundan böyük dəstək ola bilməzdi: "Məncə tamaşam çox uğurlu alınmışdı. Düşünürəm ki, hamı tərəfindən çox sevildi. Oynayarkən hüznlü, kədərli anlar yaşadım. Bu əsər bir çağırış, insanlara verilən bir mesaj idi. Hesab edirəm ki, bu gün insanlara verdiyimiz mesajı ən azı 100 nəfərə dürüst çatdira bilmişəmsə, əminəm, onların 80 faizi nəticə cıxaracaq".

Lalə xanım deyir ki, uğurlarıma görə mənə güvənən, istedadıma qiymət verən, dəstək olan İntiqam Soltana, Valeh Kərimova, Vüsal Mehrəliyə və Xalq artisti Ella Yaqubovaya, bütövlükdə isə teatrımızın bütün kollektivinə minnətdaram.

Gənc aktrisa söhbətində aktyorluğun çətin, əziyyətli, həm də sehrli sənət olduğunu bildirdi: "Hər qurulacaq tamaşada dəftərimin ilk səhifəsinə birinci kursda oxuyarkən Vidadi müəllimin bizə dediyi və esitdiyim andan qulaqlarıma sırğa etdiyim "teatr gözlə görünən yuxudur" - qeydini mütləq yazıram. Bilirəm ki, bu yolda çətinliklər olacaq. Amma o işığa tərəf hər zaman addımlayacağam. Səhnə üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bilirəm və inanıram ki, hələ qarşıda məni çox rollar gözləyir. Obrazları, onların taleyini, başlarına gələnləri araşdırıb, xarakterlərini öyrənib onlarla bütünləşdiyim anlar olacaq. İnanıram ki, bunu bacaracağam. Rangarəngliyi sevirəm və oynayacağım obrazlar da bir-birindən fərqli, gözəl olacaq. Yaratdığım bütün obrazların bir-birindən fərqli olması üçün əlimdən gələni edəcəyəm".

Gənc aktrisa yaratdığı obrazları söyləyir: "Hacı Qara"da Sona xanım, "Daldan atılan daş topuga dəyər"də Səkinə, "Nazirin xanımı" əsərində Dara, "Uzaq krallıq"da Şeyla , "Gəl qohum olaq"da Minayə, Xalq artisti Valeh Kərimovun quruluş verdiyi "Sehrli yaylıq" tamaşasında Eldar (oglan rolu), "Qoğal" tamaşasında Fidan, "Ağ-Qara" monotamaşasında Tısbağa obrazını yaratmışam". Hazırda gənc aktrisa Qriqori Qorinin "Herostratı unudun" əsərində Klementina rolu üzərində çalışır. Lalə xanım deyir ki, gecəmi gündüzümə qatmışam ki, həm teatr rəhbərliyinin etimadını doğruldum, həm də yaratdığım obrazı tamaşaçılara sevdirə bilim.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 10 yanvar (№4).- S.11.